**“Azərbaycan Akkreditasiya Mərkəzi”**
**publik hüquqi şəxs**

və

**__________(uyğunluğu qiymətləndirən qurumun adı)________**

arasında

# AKKREDİTASİYA MÜQAVİLƏSİ

№ ______

Bakı şəhəri, “___”___________2025-ci il

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanına əsasən yaradılmış və Nizamnaməsinə əsasən fəaliyyət göstərən "**Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin** (bundan sonra "Akkreditasiya orqanı") **direktoru Emin Tamerlan oğlu Zeynalov** şəxsində bir tərəfdən və nizamnaməsinə əsasən fəaliyyət göstərən **(uyğunluğu qiymətləndirən qurum)** (bundan sonra "Sifarişçi" adlandırılacaq) **rəhbəri (A.S.A)** şəxsində digər tərəfdən, ("Sifarişçi" və "Akkreditasiya orqanı" ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq), "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluğun qiymətləndirilməsi fəaliyyətləri üzrə akkreditasiya Qaydaları"na müvafiq olaraq aşağıdakı şərtlərlə bu Müqaviləni bağladılar.

## 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilə Akkreditasiya orqanı tərəfindən **____(uyğunluğu qiymətləndirən qurumun adı)_____(standartın nömrəsi)** standartının tələblərinə uyğunluğunun qiymətləndirilməsi üzrə akkreditasiya müraciətinin ilkin araşdırılmasına, təqdim olunan sənədlərin təhlilinə, yerində qiymətləndirmənin aparılmasına və Sifarişçinin akkreditasiya tələblərinə uyğun olduğu halda, qiymətləndirmənin nəticəsinə əsasən akkreditasiyası barədə qərarın qəbul edilməsinə, akkreditasiya attestatının verilməsinə, akkreditasiyadan imtina barədə qərarın qəbul edilməsinə, akkreditasiyadan sonrakı dövrdə akkreditasiya ilə bağlı sənədlərin aktuallaşdırılmasına, təkrar akkreditasiyaya akkreditasiya sahəsinə dəyişikliklər edilməsinə, akkreditasiya nişanından istifadə qaydalarına, akkreditasiya dövründə akkreditasiya tələblərinə riayət olunmasının illik qiymətləndirilməsinə, şikayət olduğu halda isə plandankənar qiymətləndirməyə, akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırılmasına, akkreditasiya sahəsinin məhdudlaşdırılmasına və akkreditasiya attestatının ləğvinə (geri çağırılmasına) dair Tərəflər arasında münasibətləri tənzimləyir.

1.2. Təkrar akkreditasiya bu Müqavilənin şərtlərinə uyğun olaraq (xidmət haqqının məbləği istisna olmaqla) akkreditasiya attestatının qüvvədə olma müddəti bitənədək həyata keçirilir.

## 2 Tərəflərin hüquq və vəzifələri

2.1. Sifarişçinin hüquqları:

2.1.1. sənədlərin təhlilinin nəticəsi barədə məlumat almaq;

2.1.2. bu Müqavilə bağlandıqdan və tam ödəniş etdikdən sonra akkreditasiya üçün təqdim olunmuş sənədlərin təhlilini həyata keçirməsini Akkreditasiya orqanından tələb etmək;

2.1.3. yerində qiymətləndirmənin nəticələrinə əsasən qiymətləndirmə komissiyası tərəfindən tərtib edilmiş hesabatın bir nüsxəsini almaq;

2.1.4. Akkreditasiya orqanına şikayət etmək;

2.1.5. Akkreditasiya orqanının qərarından Apellyasiya Şurasına şikayət etmək;

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

2.1.6. mübahisə yaranarsa, məhkəməyə müraciət etmək;

2.1.7. akkreditasiyadan imtina barədə qərar verildiyi halda, imtina barədə əsaslandırılmış qərarı almaq;

2.1.8. akkreditasiya sahəsinə dəyişikliklər edilməsi, akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırılması və ya akkreditasiya attestatının ləğvi (geri çağırılması) haqqında Akkreditasiya orqanına müraciət etmək;

2.1.9. akkreditasiya nişanından istifadə etmək;

2.1.10. görülmüş işlər barədə öz qeydlərini Akkreditasiya orqanına təqdim etmək.

2.2. Sifarişçinin vəzifələri:

2.2.1. verilməsi nəzərdə tutulmuş və ya verilmiş akkreditasiya sahəsinə münasibətdə (akkreditasiya tələblərində baş verən dəyişikliklərə də daxil olmaqla) akkreditasiya tələblərini yerinə yetirmək və buna dair sübutları təqdim etmək;

2.2.2. bu Müqaviləyə uyğun olaraq xidmətlərin göstərilməsinə başlamazdan əvvəl müqavilənin (əlavə və ya əlavələrin) bir nüsxəsini imzalayıb Akkreditasiya orqanına qaytarmaq və Akkreditasiya orqanı tərəfindən təqdim edilən hesab-fakturaya əsasən 10 (on) iş günündən gec olmayaraq akkreditasiya müraciətinin ilkin araşdırılması üçün müəyyən edilmiş birdəfəlik ödənişi tam ödəmək;

2.2.3. "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na əsasən müəyyən edilmiş akkreditasiya prosesi üçün (ilkin akkreditasiya) sərf olunması ehtimal olunan vaxta görə hesablanmış xidmət haqqının dəyərini, həmçinin "Akkreditasiya sahəsinə dəyişikliklər edilməsi ilə bağlı xidmətlərin qiymətinin razılaşdırılması Protokolu"na əsasən razılaşdırılmış məbləğin dəyərini Akkreditasiya orqanı tərəfindən təqdim edilən hesab-fakturaya əsasən 10 (on) iş günündən gec olmayaraq 100 faiz avans şəklində ödəmək;

2.2.4. "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na əsasən müəyyən edilmiş Akkreditasiya orqanı tərəfindən akkreditasiya dövründə Sifarişçinin akkreditasiya tələblərinə uyğunluğuna riayət olunmasının illik qiymətləndirilməsi ilə bağlı görüləcək işlər üçün sərf olunması ehtimal olunan vaxta görə hesablanmış xidmət haqqının dəyərini Akkreditasiya orqanı tərəfindən illik qiymətləndirmələrə (illik qiymətləndirmələrin tarixləri) başlamazdan əvvəl göndərilən hesab-fakturaya əsasən illik qiymətləndirmələr üçün təyin edilmiş tarixlərdən sonrakı 10 (on) iş günündən gec olmayaraq 100 faiz avans şəklində ödəmək;

2.2.5. Akkreditasiya orqanı tərəfindən istənilən akkreditasiya fəaliyyətinə aid bütün sənəd və məlumatları, o cümlədən Sifarişçinin təqdim etdiyi sənədlərdə və sertifikatlarda olan məlumatların təsdiqlənməsi, dəqiqləşdirilməsi və ya aydınlaşdırılması üçün zəruri olan əlavə məlumatları təqdim etmək;

2.2.6. akkreditasiya prosesi zamanı Akkreditasiya orqanı ilə qarşılıqlı fəaliyyət göstərmək üçün səlahiyyətli şəxs təyin etmək;

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________

2.2.7. uyğunluğu qiymətləndirən qurumun yerləşdiyi əraziyə (rayon, şəhər, qəsəbə, kənd, şəhərcik, bina və s.) girişlə bağlı xüsusi icazə və razılıq tələb (istər şəxslərə, istərsə də nəqliyyat vasitələrinə münasibətdə) olunduqda vaxtında bütün icazə və razılıqları almaq və həmin yerə Akkreditasiya orqanının sərbəst və maneəsiz girişini təmin etmək;

2.2.8. akkreditasiya dövründə akkreditasiya tələblərinə uyğunluğuna riayət olunmasının illik qiymətləndirilməsi üçün sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının dəyərini 100 faiz avans şəklində bu Müqavilənin 2.2.4-cü yarımbəndində müəyyən edilmiş müddət ərzində tam olaraq ödəmək, həmçinin akkreditasiya dövründə akkreditasiya tələblərinə uyğunluğuna riayət olunmasının illik qiymətləndirilməsinin, şikayət olduğu halda isə plandankənar qiymətləndirmənin aparılması üçün Akkreditasiya orqanı ilə zəruri əməkdaşlıq etmək və akkreditasiya fəaliyyətinə aid Akkreditasiya orqanı tərəfindən tələb olunan bütün sənəd və məlumatları Akkreditasiya orqanına təqdim etmək;

2.2.9. Akkreditasiya orqanı tərəfindən akkreditasiya dövründə akkreditasiya tələblərinə riayət olunmasının illik qiymətləndirilməsinin, şikayət olduğu halda isə plandankənar qiymətləndirmənin həyata keçirilməsi üçün uyğunluğu qiymətləndirmə orqanının işçi heyətinə, ərazisinə, yerlərinə, avadanlıqlarına, məlumatlarına, sənədlərinə və qeydlərinə baxılmasına şəraitin yaradılmasını təmin etmək;

2.2.10. nəticələrin etibarlılığının təmin edilməsi məqsədi ilə aşağıdakı fəaliyyətlərdə, həmçinin Akkreditasiya orqanının həyata keçirdiyi sınaqlarda iştirak etmək:

2.2.10.1. peşəkarlığın yoxlanmasında iştirak;

2.2.10.2. səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramlarında iştirak etmək.

2.2.11. uyğunsuzluq aşkar edildiyi halda Akkreditasiya orqanının müvafiq qərarını və ya bildirişini aldıqdan sonra müəyyən edilmiş müddət ərzində uyğunsuzluqları aradan qaldırmaq və bu barədə Akkreditasiya orqanını yazılı şəkildə məlumatlandırmaq;

2.2.12. qiymətləndirmənin nəticəsinə dair hesabatı qəbul etmək;

2.2.13. Akkreditasiya orqanının təşəbbüsü ilə uyğunluğun qiymətləndirilməsi prosesinin müşahidəsini təşkil etmək;

2.2.14. lazım olduğu hallarda uyğunluğu qiymətləndirən qurumun öz müştərisinə aid iş sahəsində həyata keçirdiyi fəaliyyətinin qiymətləndirilməsi üçün Akkreditasiya orqanının qiymətləndirmə komissiyasının həmin müştəriyə aid iş sahəsinə giriş imkanını təmin etmək məqsədilə bu barədə bu müştəri ilə hüquqi qüvvəyə malik müqavilə bağlamaq;

2.2.15. akkreditasiya nişanından istifadə edərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.07.2015-ci il tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş "Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadə Qaydası"na və Akkreditasiya orqanının akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadəyə dair sənədlərinin tələblərinə əməl etmək;

2.2.16. Akkreditasiya orqanının nüfuzuna zərər vura biləcək tərzdə akkreditasiyadan istifadə etməmək;

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

2.2.17. uyğunluğun qiymətləndirilməsi üzrə işləri həyata keçirərkən akkreditasiya sahəsindən kənarlaşmaya yol verməmək və yalnız akkreditasiya sahəsi çərçivəsində fəaliyyət göstərmək;

2.2.18. akkreditasiya dövründə baş vermiş əhəmiyyətli dəyişikliklər (hüquqi, kommersiya, mülkiyyət və ya təşkilati statusu, yerləşmə yeri, ünvanı, rəhbərliyi, əsas heyəti, resursları, akkreditasiya sahəsi və uyğunluğu qiymətləndirən qurumun akkreditasiya orqanının tələblərini yerinə yetirmək qabiliyyətinə təsir göstərə biləcək digər məsələlər) barədə Akkreditasiya orqanını dərhal məlumatlandırmaq;

2.2.19. uyğunluğu qiymətləndirən quruma münasibətdə akkreditasiya ilə bağlı istənilən şikayətin araşdırılmasında və həllində Akkreditasiya orqanına köməklik göstərmək;

2.2.20. Akkreditasiya orqanı tərəfindən müraciət olarsa, verilmiş, qüvvəsi dayandırılmış, və ya ləğv edilmiş (geri çağırılmış) hər bir uyğunluq sertifikatı barədə məlumatı, həmçinin sertifikatın verilməsinə əsas olmuş bütün sənəd və məlumatları təqdim etmək;

2.2.21. “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununun, bu sahəni tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının, akkreditasiya sahəsinə aid uyğunluğun qiymətləndirilməsi üzrə müvafiq standartların, Akkreditasiya üzrə Avropa Əməkdaşlığı Təşkilatının (EA), Akkreditasiya üzrə Asiya-Sakit Okean Əməkdaşlıq Təşkilatı (APAC), Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatının (İLAC), Beynəlxalq Akkreditasiya Forumunun (IAF), AzAK P005 “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru” və Akkreditasiya orqanının digər sənədlərinin tələblərini və müddəalarını, habelə bu Müqavilənin şərtlərini yerinə yetirmək;

2.2.22. təsdiq edilmiş akkreditasiya sahəsi üzrə fəaliyyətinin dayandırıldığı və ya ləğv edildiyi (geri çağırıldığı) halda Akkreditasiya orqanını xəbərdar etmək;

2.2.23. akkreditasiya attestatının ləğv edilməsi (geri çağırılması) barədə qərarı aldığı gün akkreditasiya attestatını Akkreditasiya orqanına qaytarmaq;

2.2.24. akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırılması (tam və ya qismən), akkreditasiya sahəsinin məhdudlaşdırılması (tam və ya qismən) və ya akkreditasiya attestatının ləğvi (geri çağırılması) barədə qərarı aldığı gündən etibarən müvafiq olaraq akkreditasiyaya istinadı dayandırmaq;

2.2.25. Keyfiyyət informasiya sistemində (www.e-keyfiyyet.gov.az) fəaliyyət sahəsinə uyğun olaraq uyğunluğun qiymətləndirilməsinin nəticələrinə dair verilən yekun sənədlərin (ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamələrin və kalibrlənməsi haqqında sertifikatların (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla), sınaq laboratoriyalarında aparılmış tədqiq (sınaq) nəticələrinə dair sənədlərin, inspeksiya orqanının rəyinin, uyğunluq sertifikatlarının, ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamələrin, orta riskli mallar üçün uyğunluğu qiymətləndirən qurum tərəfindən uyğunluğun təsdiqi barədə təsdiqedici sənədlərin) elektron formada yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən

*Sifarişçi* _______________________ *Akkreditasiya orqanı*__________________

rəsmiləşdirilməsi, yararsızlıq haqqında bildirişin yaradılması, qeydiyyatı və ləğv edilməsi, habelə ölçmə vasitələrinin üzərinə vurulan yoxlama və kalibrlənmə nişanlarının qeydiyyatını aparmaq.

2.3. Sifarişçi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malikdir və digər vəzifələr daşıyır.

2.4. Akkreditasiya orqanının hüquqları:

2.4.1. bu Müqaviləyə uyğun olaraq xidmətlərin göstərilməsinə başlamazdan əvvəl Sifarişçiyə verdiyi hesab-fakturanın tarixindən 10 (on) iş gündən gec olmayaraq bu Müqavilənin 4.1.1.-ci yarımbəndi ilə müəyyən edilmiş birdəfəlik ödənişin 100 faiz avans şəklində tam ödəməyi Sifarişçidən tələb etmək;

2.4.2. "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na əsasən müəyyən edilmiş akkreditasiya prosesi üçün (ilkin akkreditasiya) sərf olunması ehtimal olunan vaxta görə hesablanmış xidmət haqqının dəyərini, habelə "Akkreditasiya sahəsinə dəyişikliklər edilməsi ilə bağlı xidmətlərin qiymətinin razılaşdırılması Protokolu"na əsasən razılaşdırılmış məbləğin dəyərini Akkreditasiya orqanı tərəfindən Sifarişçiyə göndərilən hesab-fakturaya əsasən 10 (on) iş günündən gec olmayaraq 100 faiz avans şəklində ödəməyi tələb etmək;

2.4.3. "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na əsasən müəyyən edilmiş akkreditasiya dövründə Sifarişçinin akkreditasiya tələblərinə uyğunluğuna riayət olunmasının illik qiymətləndirilməsi ilə bağlı görüləcək işlər üçün sərf olunması ehtimal olunan vaxta görə hesablanmış xidmət haqqının dəyərini Akkreditasiya orqanı tərəfindən illik qiymətləndirmələrə (illik qiymətləndirmələrin tarixləri) başlamazdan əvvəl göndərilən hesab-fakturaya əsasən, illik qiymətləndirmələr üçün təyin edilmiş tarixlərdən sonrakı 10 (on) iş günündən gec olmayaraq 100 faiz avans şəklində tam ödəməyi Sifarişçidən tələb etmək;

2.4.4. Sifarişçi akkreditasiya müraciətinin ilkin araşdırılması üçün müəyyən edilmiş birdəfəlik ödənişin, habelə akkreditasiya prosesinin həyata keçirilməsi üçün (ilkin akkreditasiya) "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" ilə müəyyən edilmiş sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının məbləğini 2.4.1-ci yarımbənddə göstərilmiş müddət ərzində tam olaraq ödəmədikdə Sifarişçinin akkreditasiya olunmaqla bağlı müraciətinə baxılma müddətinin axımını dayandırmaq;

2.4.5. akkreditasiya dövründə akkreditasiya tələblərinə uyğunluğuna riayət olunmasının illik qiymətləndirilmənin həyata keçirilməsi üçün Sifarişçi "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" ilə müəyyən edilmiş sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının məbləğini 2.4.1-ci yarımbənddə göstərilmiş müddət ərzində tam olaraq ödəmədikdə akkreditasiya attestatının qüvvədə olma müddətini müvəqqəti dayandırmaq, Sifarişçi müəyyən edilmiş müddət ərzində bu nöqsanı aradan qaldırmasa, akkreditasiya attestatını ləğv etmək (geri çağırmaq);

2.4.6. Sifarişçi tərəfindən verilmiş, qüvvəsi dayandırılmış, və ya ləğv edilmiş hər bir uyğunluq sertifikatı barədə məlumatı, həmçinin sertifikatın verilməsinə əsas olmuş bütün sənəd və məlumatları Sifarişçidən tələb etmək;

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________

2.4.7. Sifarişçi tərəfindən "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununun, bu sahəni tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının, akkreditasiya sahəsinə aid uyğunluğun qiymətləndirilməsi üzrə müvafiq standartların, Akkreditasiya üzrə Avropa Əməkdaşlığı Təşkilatının (EA), Akkreditasiya üzrə Asiya-Sakit Okean Əməkdaşlıq Təşkilatı (APAC), Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatının (İLAC), Beynəlxalq Akkreditasiya Forumunun (IAF), AzAK P005 "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru" və Akkreditasiya orqanının digər sənədlərinin tələblərini və müddəalarını, habelə bu Müqavilənin şərtlərinin yerinə yetirilməsini tələb etmək, bu Müqavilənin şərtləri tam və ya qismən pozulduqda (icra olunmadıqda) akkreditasiya ilə bağlı müraciətə baxılma müddətinin axımını dayandırmaq, akkreditasiya attestatının qüvvəsini müvəqqəti dayandırmaq, akkreditasiya sahəsini məhdudlaşdırmaq və ya akkreditasiya attestatını ləğv etmək (geri çağırmaq) və bu Müqaviləyə xitam vermək;

2.4.8. akkreditasiya fəaliyyətinə aid bütün sənəd və məlumatları, o cümlədən Sifarişçinin təqdim etdiyi sənədlərdə və sertifikatlarda olan məlumatların təsdiqlənməsi, dəqiqləşdirilməsi və ya aydınlaşdırılması üçün zəruri olan əlavə məlumatları Sifarişçidən tələb etmək;

2.4.9. akkreditasiya attestatının qüvvədə olma müddətini müvəqqəti dayandırmaq və bərpa etmək;

2.4.10. Sifarişçinin akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumunda akkreditasiya tsikli proqrama uyğun olaraq akkreditasiya dövründə akkreditasiya tələblərinə riayət olunmasının 2 (iki) dəfə (ildə bir dəfə olmaqla) illik qiymətləndirilməsini, təkrar akkreditasiyanı, şikayət olduğu halda isə plandankənar qiymətləndirməni həyata keçirmək;

2.4.11. qiymətləndirmə komissiyası tərəfindən qiymətləndirmə aparılan müddət ərzində aradan qaldırılması mümkün olmayan uyğunsuzluqlar aşkar edilərsə və Sifarişçinin bu uyğunsuzluqları aradan qaldırdığı barədə bildirişini alarsa, izləmə qiymətləndirməsini aparmaq;

2.4.12. AzAK P011 "Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi"nin müddəalarına riayət etməklə nəticələrin etibarlılığının təmin edilməsi məqsədi ilə aşağıdakı fəaliyyətlərdə iştirak etmək:

2.4.12.1. səriştəlilik sınaqlarında iştirak;

2.4.12.2. laboratoriyalararası müqayisə proqramlarında iştirak etmək.

2.4.13. akkreditasiya ilə bağlı baş vermiş əhəmiyyətli dəyişikliklər (hüquqi, kommersiya, mülkiyyət və ya təşkilati statusu, yerləşmə yeri, ünvanı, rəhbərliyi, əsas heyəti, resursları, akkreditasiya sahəsi və uyğunluğu qiymətləndirən qurumun akkreditasiya orqanının tələblərini yerinə yetirmək qabiliyyətinə təsir göstərə biləcək digər məsələlər) barədə Akkreditasiya orqanını dərhal məlumatlandırmadıqda akkreditasiya attestatının qüvvədə olma müddətini müvəqqəti dayandırmaq, Sifarişçi müəyyən edilmiş müddət ərzində bu nöqsanı aradan qaldırmasa, akkreditasiya attestatını ləğv etmək;

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

2.4.14. bu Müqaviləni 10.1.1-10.1.8-ci yarımbəndlərdə nəzərdə tutulmuş hallarda birtərəfli qaydada ləğv etmək.

2.5. Akkreditasiya orqanının vəzifələri:

2.5.1. bu Müqavilə bağlandıqdan və Müqavilənin 4.1.1-ci yarımbəndi ilə müəyyən edilmiş birdəfəlik ödəniş edildikdən sonra akkreditasiya müraciətinin ilkin araşdırılmasına başlamaq;

2.5.2. "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" imzalandıqdan və Protokola uyğun olaraq müəyyən edilmiş məbləğ Sifarişçi tərəfindən 100 faiz avans şəklində tam ödənildikdən sonra akkreditasiya prosesinə başlamaq;

2.5.3. qiymətləndirmə zamanı uyğunsuzluqlar aşkar edildikdə, uyğunsuzluqlar və onların aradan qaldırılmasına dair düzəliş tədbirlərini və uyğunsuzluqların mahiyyətindən asılı olaraq düzəliş tədbirləri üçün müəyyən edilmiş müddəti hesabatda göstərmək;

2.5.4. hesabatda göstərilmiş uyğunsuzluqların aradan qaldırılması və düzəliş tədbirlərinin icra edilməsi barədə məlumat verdikdə düzəliş tədbirlərinin icra vəziyyətini yoxlamaq;

2.5.5. düzəliş tədbirlərinin yerinə yetirilməsini yerində yoxlamaq və yoxlama nəticələrinə dair qiymətləndirmə hesabatı tərtib etmək;

2.5.6. yerində qiymətləndirmənin nəticələrinə əsasən tərtib edilmiş hesabatın bir nüsxəsini Sifarişçiyə göndərmək;

2.5.7. hesabata dair Sifarişçinin qeydlərini (əgər varsa) nəzərə almaqla müvafiq qərar qəbul etmək və qərarın surətini Sifarişçiyə göndərmək;

2.5.8. qiymətləndirmənin nəticələrinə uyğun olaraq akkreditasiya və ya akkreditasiyadan imtina barədə qərar qəbul etmək;

2.5.9. akkreditasiyadan imtina edilərsə, bu barədə əsaslandırılmış qərarı Sifarişçiyə göndərmək;

2.5.10. akkreditasiya barədə qərar qəbul edildikdən sonra qanunvericiliklə müəyyən edilmiş şərtlər və müddət ərzində Sifarişçinin akkreditasiya attestatını, qiymətləndirmənin nəticələrinə müvafiq olaraq akkreditasiya sahəsini, akkreditasiya nişanını və əsasnaməsini təsdiqləmək və Sifarişçiyə təqdim etmək;

2.5.11. imtinaya əsas yoxdursa, Sifarişçinin müraciətinə əsasən aktuallaşdırılmış akkreditasiya materiallarını təsdiqləmək, qiymətləndirmənin nəticələrinə müvafiq olaraq akkreditasiya sahəsinin yenidən təsdiqlənməsi ilə akkreditasiyanı yeniləmək;

2.5.12. akkreditasiya attestatının ləğvi barədə qərar qəbul olunduğu halda bu qərarın surətini Sifarişçiyə göndərmək;

2.5.13. akkreditasiya attestatının qüvvədə olma müddətinin müvəqqəti dayandırılmasına səbəb olan uyğunsuzluqların Sifarişçi tərəfindən aradan qaldırdığı halda 3 (üç) iş günü ərzində akkreditasiyanı bərpa etmək.

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

2.6. akkreditasiya orqanı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malikdir və digər vəzifələr daşıyır.

2.7. Tərəflərdən heç biri qarşılıqlı razılıq olmadan bu Müqavilədə nəzərdə tutulmuş hüquq və vəzifələri üçüncü şəxsə ötürmək hüququna malik deyildir.

2.8. Tərəflər reyestrə daxil edilməli olan məlumatlar istisna olmaqla, bu Müqavilə üzrə fəaliyyət nəticəsində əldə olunmuş məlumatların qanunvericiliklə nəzərdə tutulmuş qaydada məxfiliyini təmin etməyi öhdələrinə götürürlər.

## 3. Təkrar akkreditasiya, akkreditasiya ilə bağlı sənədlərin aktuallaşdırılması, akkreditasiya sahəsində dəyişikliklər edilməsi, akkreditasiya dövründə akkreditasiya tələblərinə riayət olunmasının illik qiymətləndirilməsi və akkreditasiya attestatının ləğvi (geri çağırılması)

3.1. Təkrar akkreditasiya, akkreditasiya ilə bağlı sənədlərin aktuallaşdırılması, akkreditasiya sahəsində dəyişikliklər edilməsi və akkreditasiya attestatının ləğvi (geri çağırılması) qanunvericiliyə, akkreditasiya qaydalarına və bu Müqaviləyə uyğun həyata keçirilir.

3.2. Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumun akkreditasiya dövründə akkreditasiya tələblərinə uyğunluğunun illik qiymətləndirilməsi Akkreditasiya orqanı tərəfindən tərtib edilmiş akkreditasiya tsikli proqramına uyğun olaraq ilkin qiymətləndirmədən sonrakı növbəti iki il ərzində ildə bir dəfə olmaqla həyata keçirilir.

3.3. Bu Müqavilənin 3.2-ci bəndinin tələbləri plandankənar qiymətləndirməyə şamil olunmur.

## 4. İşlərin dəyəri, ödənilmə qaydası və tərəflərin məsuliyyəti

4.1. Akkreditasiya orqanı tərəfindən akkreditasiya müraciətinin araşdırılmasına görə ödəniş məbləği və akkreditasiya prosesi ilə bağlı görüləcək işlərlə əlaqədar sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının dəyəri aşağıdakı qaydada müəyyən olunur:

4.1.1. akkreditasiya müraciətinin araşdırılmasına görə ödənilən məbləğ: 450 (dörd yüz əlli) AZN;

4.1.2. ilkin akkreditasiyaya və akkreditasiya sahəsinin genişləndirilməsinə görə - müraciətin araşdırılması nəticəsinə uyğun olaraq Akkreditasiya orqanı tərəfindən akkreditasiya xidmətlərinin yerinə yetirilməsi mümkünlüyü müəyyən edildikdə Akkreditasiya orqanı akkreditasiya prosesinin həyata keçirilməsinə görə görüləcək işlərin, habelə birinci və ikinci illik qiymətləndirmələrin dəyərini hesablayıb Sifarişçiyə bildirir;

4.1.3. Akkreditasiya xidmətlərinin göstərilməsinə dair 4.1.2-ci yarımbəndində göstərilən xidmət haqqının dəyərinin razılaşdırılması Tərəflər arasında "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"nun (Müqaviləyə əlavə) və ya digər Müqaviləyə əlavələrin imzalanması ilə rəsmiləşdirilir;

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________

4.2. bu Müqavilənin 4.1-ci bəndində göstərilən məbləğin hesablanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyun 2019-cu il tarixli 271 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsinə görə xidmət haqqının məbləği"nin və "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsi üçün planlaşdırılan iş həcminin xüsusiyyətləri"nə uyğun olaraq aparılır və bu müqaviləyə əlavə olaraq bağlanmış və müqavilənin ayrılmaz tərkib hissəsi olan əlavələrlə müəyyən edilir.

4.3. Sifarişçi bu Müqavilənin 4.1.1-ci yarımbəndində göstərilmiş məbləği tam şəklində hazırkı müqavilə imzalandığı tarixdən sonrakı 10 (on) iş günü ərzində Akkreditasiya orqanı tərəfindən təqdim edilmiş hesab fakturaya uyğun olaraq ona ödəməyi öz öhdəsinə götürür.

4.4. bu Müqavilənin 4.1.1-ci yarımbəndində göstərilən xidmətə görə ödənilmiş məbləğ geri qaytarılmayan vəsait hesab olunur.

4.5. Sifarişçi Akkreditasiya orqanı tərəfindən ilkin akkreditasiyaya görə görüləcək işlərlə əlaqədar sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının dəyərini, bu müqavilənin 4.1.3-cü yarımbəndində göstərilmiş və müqavilənin ayrılmaz tərkib hissəsi olan "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na (Müqaviləyə əlavə) uyğun olaraq 100% faiz avans şəklində Protokol (Müqaviləyə əlavə) imzalandığı tarixdən sonrakı 10 (on) iş günü ərzində Akkreditasiya orqanı tərəfindən təqdim edilmiş hesab fakturaya əsasən ona ödəməyi öz öhdəsinə götürür.

4.6. Sifarişçi bu Müqavilənin 4.1.3-cü yarımbəndində qeyd edilmiş "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" (Müqaviləyə əlavə) ilə müəyyən edilmiş birinci və ikinci illik qiymətləndirməyə görə görüləcək işlərə dair sərf olunması ehtimal olunan vaxta görə xidmət haqqının dəyərini 100% avans şəklində illik qiymətləndirmə vaxtına uyğun olaraq Akkreditasiya orqanı tərəfindən təqdim edilmiş hesab fakturaya uyğun olaraq 10 (on) iş günü ərzində ona ödəməyi öz öhdəsinə götürür.

4.7. Sifarişçi ilə Akkreditasiya orqanı arasında avans ödənişləri üzrə hesablaşmalar faktiki görülmüş işlərə və tərəflər arasında imzalanmış işlərin görülməsinə dair imzalanmış təhvil-təslim aktına əsasən aparılacaqdır:

4.7.1. görülən işlərə faktiki sərf edilən müddət bu müqavilənin "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" (Müqaviləyə əlavə) ilə müəyyən edildiyindən artıq olarsa Sifarişçi əlavə hesablanan və müvafiq aktla təsdiq edilən məbləği Akkreditasiya orqanına ödəməyi öz öhdəsinə götürür;

4.7.2. görülən işlərə faktiki sərf edilən müddət bu müqavilənin "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" (Müqaviləyə əlavə) ilə müəyyən edildiyindən az olarsa Akkreditasiya orqanı artıq qalan və müvafiq aktla təsdiq edilən məbləği Sifarişçiyə ödəməyi öz öhdəsinə götürür.

4.8. Sifarişçi bu Müqavilənin 4.1.1-ci və 4.1.2-ci yarımbəndlərində qeyd edilən akkreditasiya müraciətinin araşdırılmasına görə məbləği və "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" (Müqaviləyə əlavə) ilə müəyyən edilmiş ilkin akkreditasiyaya görə görüləcək işlərə dair sərf olunması ehtimal olunan vaxta görə xidmət

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

haqqının dəyərini avans şəklində bu Müqavilənin 4.3-cü və 4.5-ci bəndləri ilə müəyyən edilmiş müddət ərzində Akkreditasiya orqanına ödədikdən sonra akkreditasiya prosesinin istənilən mərhələsində akkreditasiya prosesindən könüllü olaraq imtina edə bilər:

4.8.1. Sifarişçi akkreditasiya prosesindən könüllü olaraq imtina etdikdə həmin ana qədər görülən işlərin həcmi və işlərə sərf edilən vaxt hesablanır və Tərəflər arasında müvafiq aktlarla təsdiq olunur;

4.8.2. bu Müqavilənin 4.8.1-ci yarımbəndinə uyğun olaraq tərtib edilən aktlara əsasən imtina anına görülmüş işlərin həcmi və sərf olunan vaxta görə hesablanmış məbləğ müqavilənin "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu" (Müqaviləyə əlavə) nəzərə alınmaqla avans məbləğindən çıxılır və Akkreditasiya orqanı tərəfindən Sifarişçiyə ödənilir.

4.9. Akkreditasiya orqanı bu müqavilənin 4.8-ci bəndində göstərilən hal ilə əlaqədar müvafiq qərar qəbul edir. Qərarda Sifarişçinin akkreditasiya prosesindən könüllü imtina etməsi, imtina anına qədər görülən işlərin həcmi, sərf edilən vaxt, dəyəri və buna müvafiq olaraq geri qaytarılacaq məbləğ göstərilir.

4.10. Uyğunluğu qiymətləndirən qurumun fəaliyyəti barədə şikayət daxil olduğu halda, şikayətdə göstərilən uyğunsuzluq təsdiqini taparsa, həyata keçirilmiş plandankənar qiymətləndirmənin xidmət haqqının dəyəri əlavə olaraq Sifarişçi tərəfindən ödənilir.

4.11. Akkreditasiya orqanı tərəfindən görüləcək işlərlə (ilkin akkreditasiya, akkreditasiya sahəsinin genişləndirilməsinə, birinci və ikinci illik qiymətləndirmə) əlaqədar ezamiyyə xərcləri ("Ezamiyyə xərclərinin normaları haqqında" Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli, 14 saylı qərarına və Maliyyə Nazirliyinin 2012-ci il 18 yanvar tarixli Q-01 saylı qərarı ilə təsdiq edilmiş "İşçilərin Ezamiyyə Qaydaları"na əsasən tənzimlənir) "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na əlavə edilmiş cədvəl ilə müəyyən olunur və həmin xərclər Sifarişçi tərəfindən ödənilir.

4.12. Sifarişçi bu Müqavilədə müəyyən edilmiş və müqavilənin ayrılmaz tərkib hissəsi olan "Akkreditasiya xidmətlərinin qiymətinin razılaşdırılması Protokolu"na (Müqaviləyə əlavə) uyğun olaraq hesablanmış görüləcək işlərə dair ehtimal edilən xidmət haqqı məbləğinin avans ödənişini tam və ya qismən gecikdirdikdə gecikdirilən məbləğin 10 (on) faizindən çox olmamaq şərti ilə, hər gecikmiş gün üçün müəyyən olunmuş məbləğin 0,1 (sıfır tam onda bir) faizi məbləğində dəbbə pulu ödəyir.

4.13. Dəbbə pulunun ödənilməsi Sifarişçini bu Müqavilə ilə üzərinə götürdüyü vəzifələrini yerinə yetirməkdən azad etmir.

## 5. Nəticələrin etibarlılığının təmin edilməsi

5.1. Akkreditasiya orqanı Sifarişçinin səriştəliliyini yoxlamaq məqsədi ilə AzAK P011 "Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları ilə bağlı siyasət sənədi"nin müddəalarına riayət etməklə aşağıdakı fəaliyyətləri tələb və təşkil edə bilər:

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

5.1.1. səriştəlilik sınaqlarında iştirak;

5.1.2. laboratoriyalararası müqayisə proqramlarında iştirak etmək.

5.2. bu Müqavilənin 5.1.-ci bənddə qeyd edilən fəaliyyətlərin həyata keçirilməsi ilə bağlı yaranan bütün xərclər Sifarişçi tərəfindən ödənilir.

## 6. Akkreditasiya nişanından istifadə qaydaları

6.1. Akkreditasiya nişanı Akkreditasiya orqanının loqosundan, standartın işarəsi və Sifarişçiyə verilmiş akkreditasiya attestatının qeydiyyat nömrəsindən ibarətdir. Sifarişçi tərəfindən Akkreditasiya loqosunun ayrıca istifadəsinə yol verilmir. Akkreditasiya nişanından istifadə qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.07.2015-ci il tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş "Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadə Qaydası"nda və Akkreditasiya orqanının akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadəyə dair sənədlərində verilmişdir.

6.2. Akkreditasiya nişanı Sifarişçinin uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyətin nəticələrinə əsasən verdiyi protokollarda, sertifikatlarda və digər sənədlərdə yalnız akkreditasiya sahəsi çərçivəsində və akkreditasiya attestatının qüvvədə olduğu müddət ərzində istifadə oluna bilər.

6.3. Akkreditasiya nişanı akkreditasiya attestatının qüvvədə olduğu müddətdə Sifarişçinin blanklarında, veb saytında, reklamında istifadə oluna bilər.

6.4. Akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırıldığı və ya akkreditasiya attestatının ləğv olunduğu və ya bu Müqaviləyə xitam verildiyi hallarda akkreditasiya nişanından istifadəyə yol verilmir.

6.5. Sifarişçi tərəfindən istifadə olunan akkreditasiya nişanı bu nişanın texniki xarakteristikalarına uyğun olmalıdır. Akkreditasiya nişanının təhrif edilməsi və ona hər hansı dəyişikliklər edilməsi yolverilməzdir.

6.6. Sifarişçi akkreditasiya nişanından hüququ olmadığı halda istifadə etdikdə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan məsuliyyəti daşıyır.

## 7. Fors-major halları

7.1. Əgər fövqəladə vəziyyət (daşqın, zəlzələ, dövlət orqanları tərəfindən işlərin yerinə yetirilməsinə mane olan və ya qadağan edən aktın qəbulu) Tərəflərin bu Müqavilə üzrə vəzifələrinin tam və ya bir hissəsinin yerinə yetirilməsini mümkünsüz edərsə, onlar məsuliyyətdən azad olunurlar.

7.2. Bu Müqavilə üzrə vəzifələrin icra müddəti fövqəladə vəziyyətin və onun nəticələrinin davam etdiyi müddətə müvafiq olaraq təxirə salınır.

7.3. Fövqəladə vəziyyət yaranarsa, fövqəladə vəziyyətin yarandığı gündən 5 (beş) təqvim günü ərzində Tərəflərdən biri digərini yazılı şəkildə məlumatlandırmalıdır. Azərbaycan

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________

Respublikasının fövqəladə vəziyyət baş verən təşkilatın verdiyi və ya səlahiyyətli dövlət orqanları tərəfindən verilmiş müvafiq sənədlər (arayışlar, aktlar və s) fövqəladə vəziyyətin baş verdiyini təsdiq edən sənədlərdir.

7.4. Əgər fövqəladə vəziyyət 3 (üç) aydan çox davam edərsə və onun bitməsi haqqında dəqiq qərar vermək mümkün deyilsə, Tərəflərdən hər biri bu Müqaviləyə xitam vermək hüququna malikdir. Bu halda Akkreditasiya orqanı faktiki görülmüş işlərin dəyərini ümumi məbləğdən çıxmaqla ödənilmiş məbləği Sifarişçiyə qaytarmalıdır.

7.5. Fövqəladə vəziyyət barədə xəbərdarlıq etməmək və ya xəbərdarlığı vaxtında etməmək Tərəfləri bu Müqavilə üzrə vəzifələrin yerinə yetirilməməsinə görə nəzərdə tutulmuş məsuliyyətdən azad olunma səbəbi kimi fövqəladə vəziyyətlərə istinad etmək hüququndan məhrum edir.

## 8. Kommersiya sirri rejiminin müəyyən edilməsi

8.1. Bu Müqavilənin şərtləri və icrası, bu Müqavilənin icrası üçün Tərəflər arasında aparılan yazışmalar və danışıqlar (o cümlədən, Müqavilənin bağlanması, dəyişikliklər edilməsi və yaranmış mübahisələrin həlli məqsədilə aparılan danışıqlar), xidmət haqqı, Müqavilənin icrası məqsədi ilə hər hansı bir Tərəfin üçüncü şəxslərlə bağladığı müqavilələrin mətnləri, həmçinin bu Müqaviləyə əsasən göstəriləcək xidmətlərin və tərtib ediləcək sənədlərin məzmunu və mahiyyəti, habelə Sifarişçi barədə İcraçıya, İcraçı barədə Sifarişçiyə məlum olan digər hər hansı məlumat Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq kommersiya sirri hesab edilir və gizli saxlanılır. Kommersiya sirri təşkil edən məlumatlara həmçinin kommersiya sirrinin əsasında alınmış məlumatlar da aiddir.

8.2. Sifarişçi akkreditasiya orqanına təqdim edilən akkreditasiya fəaliyyətinə aid bütün sənəd və məlumatların, habelə onların təsdiqlənməsi, dəqiqləşdirilməsi və ya aydınlaşdırılması üçün zəruri olan əlavə məlumatların doğruluğuna zəmanət verir və onların həqiqiliyinin akkreditasiya orqanı tərəfindən yoxlanılması kommersiya sirrinin pozulması hesab edilmir.

8.3. Tərəflər 3 (üç) il müddətində kommersiya sirri təşkil edən məlumatların tam məxfiliyinin qorunması üzrə Azərbaycan Respublikasının qanunvericiliyinə və Müqaviləyə uyğun olaraq məsuliyyət daşıyırlar.

8.4. Kommersiya sirri təşkil edən məlumatların hər hansı üçüncü tərəfə açıqlanmasına yalnız Tərəflərin yazılı razılığı və ya Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə dairəsi müəyyən edilən səlahiyyətli şəxslərin rəsmi sorğusu əsasında yol verilir. Məlumatı açıqlamalı olan Tərəf bu barədə digər Tərəfi 1 (bir) iş günü ərzində yazılı qaydada məlumatlandırmalıdır.

## 9. Anti-korrupsiya öhdəlikləri

9.1. Tərəflər hazırkı Müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsində nə onların, nə də işçilərinin və nümayəndələrinin Azərbaycan Respublikasının korrupsiyaya qarşı qanunvericiliyini, eləcə də korrupsiyaya qarşı və cinayətkarlıq yolu ilə əldə edilmiş gəlirlərin

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

leqallaşdırılmasına (yuyulmasına) tətbiq edilən digər qanunların tələblərini pozan hər hansı hərəkətə və ya hərəkətsizliyə yol verməməsini təmin etməyi öhdəsinə götürür.

9.2. Bu öhdəlik hər hansı şəxslərə və təşkilatlara və ya hər hansı şəxslərdən və yaxud təşkilatlardan, o cümlədən hakimiyyət orqanları, rəsmi şəxslər, siyasi xadimlər, özəl təşkilatlar, onların nümayəndələrindən və s. istənilən formada, o cümlədən pul vəsaitləri, digər qiymətlilər, əmlak, əmlak hüquqları, xidmətlər (işlər) və ya digər maddi və ya qeyri-maddi fayda formasında:

9.2.1. birbaşa və ya dolayısı ilə, şəxsən və ya üçüncü tərəfin vasitəsi ilə rüşvətin təklif olunması, vəd edilməsi, verilməsi, verilməsinə vadar edilməsi, alınmasına razılıq verilməsi və ya alınması, eləcə də təklif olunmasında və ya alınmasında vasitəçi olmasına;

9.2.2. inzibati, bürokratiya və digər rəsmiliklərin həyata keçirilməsi üçün rəsmiliklərin sadələşdirilməsi ödənişlərinin aparılmasına, hökumət orqanları, hökumət rəsmiləri, siyasətçilər, özəl təşkilatlar, onların nümayəndələri də daxil olmaqla istənilən şəxs və ya təşkilat tərəfindən istənilən formada alınan və ya onlara verilən pul, qiymətli əşyalar, aktivlər, əmlak hüquqları, xidmətlər (işlər) və digər maddi və ya qeyri-maddi mənfəətlərinə şamil olunur.

## 10. Müqavilənin ləğv olunması

10.1. Bu Müqavilə aşağıdakı hallarda Akkreditasiya orqanı tərəfindən birtərəfli qaydada ləğv olunur:

10.1.1. sənədlərin təhlili və ya yerində qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqların Sifarişçi tərəfindən müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda;

10.1.2. qiymətləndirmə komissiyasının hesabatında göstərilmiş uyğunsuzluqların müvafiq olaraq sənədlərin təkrar təhlili və ya təkrar yerində qiymətləndirilməsi zamanı aşkar edildikdə;

10.1.3. Akkreditasiya orqanı tərəfindən akkreditasiyadan imtina barədə qərar qəbul edildikdə;

10.1.4. Sifarişçi təşkilat ləğv olunduqda;

10.1.5. akkreditasiya prosesi başlamazdan əvvəl Sifarişçi akkreditasiyadan imtina etdikdə;

10.1.6. bu Müqavilənin şərtləri Sifarişçi tərəfindən tam və ya qismən pozulduqda (icra olunmadıqda);

10.1.7. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununun, bu sahəni tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının, akkreditasiya sahəsinə aid uyğunluğun qiymətləndirilməsi üzrə müvafiq standartların, Akkreditasiya üzrə Avropa Əməkdaşlığı Təşkilatının (EA), Akkreditasiya üzrə Asiya-Sakit Okean Əməkdaşlıq Təşkilatı (APAC), Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatının (İLAC), Beynəlxalq Akkreditasiya Forumunun (IAF), AzAK

*Sifarişçi* ________________________ *Akkreditasiya orqanı*__________________

P005 “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru” və Akkreditasiya orqanının digər sənədlərinin tələblərini və müddəaları Sifarişçi tərəfindən pozulduqda;

10.1.8. Akkreditasiya orqanının verdiyi hesab-faktura üzrə ödənişlər müəyyən edilmiş müddət ərzində Sifarişçi tərəfindən ödənilmədikdə.

10.2. Bu Müqavilə aşağıdakı hallarda Sifarişçi tərəfindən birtərəfli qaydada ləğv olunur:

10.2.1. Akkreditasiya orqanı ləğv edildikdə;

10.2.2. bu Müqavilənin şərtləri Akkreditasiya orqanı tərəfindən tam pozulduqda (icra olunmadıqda).

10.3. Bu Müqavilə Tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

## 11. Digər şərtlər

11.1. Bu Müqavilə Tərəflər arasında imzalandığı gün qüvvəyə minir və akkreditasiya attestatı verildiyi gündən etibarən 3 (üç) il müddətinə etibarlıdır.

11.2. Bu Müqavilə Azərbaycan dilində Tərəflərin hər biri üçün bir nüsxə olmaqla iki nüsxədə tərtib olunur və akkreditasiya prosesinə başlamaq üçün təsdiq olunmuş nüsxələrdən birinin Akkreditasiya orqanına qaytarılması vacibdir.

11.3. Tərəflər bəyan edirlər ki, bu Müqavilə üzrə üzərilərinə götürdükləri öhdəliklərin icrası onların iradə ifadələrini əks etdirir və qanunvericiliklə müəyyən edilmiş qaydalarla ziddiyyət təşkil etmir.

11.4. Tərəflər bu Müqavilə üzrə yaranan mübahisə və fikir ayrılıqlarını danışıqlar yolu ilə aradan qaldıracaqlar, bu mümkün olmadıqda aidiyyəti üzrə məhkəməyə müraciət edə bilərlər.

11.5. Bu Müqaviləyə dair sənədləri elektron poçt və ya faksla göndərmiş Tərəf, sonrakı 10 (on) təqvim günü ərzində müvafiq sənədin əslini digər Tərəfə göndərməlidir.

11.6. Bu Müqaviləyə edilmiş bütün əlavə və dəyişikliklər yazılı şəkildə tərtib edilib hər iki Tərəfdən imzalandıqdan sonra hüquqi qüvvəyə minir.

11.7. Bu Müqavilədə nəzərdə tutulmayan digər hallarda Tərəflər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini əsas götürürlər.

## 12. Tərəflərin rekvizitləri və imzaları

| **Akkreditasiya orqanı:** | **Sifarişçi:** |
|---|---|
| **“Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxs** | **Uyğunluğu qiymətləndirən qurum** |
| VÖEN: 1403750371 | VÖEN: |
| Ünvan: Bakı şəhəri, Nərimanov rayonu Elçin İsaqzadə küçəsi 7-ci köndələn | Ünvan: |
| Bank: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Abşeron filialı | Bank: |
| VÖEN: 9900001881 | VÖEN: |
| | Kod: |

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________

Kod: 805539

M/h: AZ03NABZ01350100000000002944

H/h: AZ35IBAZ38090019446344675201

M.Y. __________________E.Zeynalov

M/h:

H/h:

M.Y.___(rəhbər şəxsin imzası)___A.S.A

*Sifarişçi* ______________________ *Akkreditasiya orqanı*_________________